# Bayrağımız müstəqilliyimizin bariz ifadəsidir



Dövlət bayrağı hər bir Azərbaycan vətəndaşının fəxri, şərəfi və qürur mənbəyidir, müstəqil dövlətimizin qüdrətinin rəmzidir. Müasir Azərbaycanın qurucusu, dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və əvəzsiz səyləri ilə Azərbaycan Xalq Cümhuriyyətinin ülvi yadigarı, 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikasında ikinci dəfə təsdiq edilmiş üçrəngli dövlət bayrağı rəsmi dövlət rəmzi olmaqla yanaşı, milli həmrəyliyin, azərbaycançılıq məfkurəsinin ətrafında bütün vətənpərvər soydaşlarımızın sıx birləşməsinin başlıca amillərindəndir.

Çağdaş dövlətimizin müdrik siyasi xadimi ulu öndər Heydər Əliyev üçrəngli bayrağımızı yaşatmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırması üçün gərgin iş gördü. Azərbaycan Respublikası Ali Soveti 1991-ci il fevralın 5-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi və bu aktla milli bayrağımız Azərbaycan üzərində dalğalanmağa başladı.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunduqdan sonra Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etdi. İlk olaraq Türkiyə Cümhuriyyəti ölkəmizin müstəqilliyini tanıdı. Böyük öndər Qazi Mustafa Kamal Atatürkün vaxtilə söylədiyi "Azərbaycan bayrağını Türkiyə bayrağı yanında, Türkiyə səmasında dalğalanmasını görmək bütün millətimiz üçün böyük bir bayramdır" sözləri bu gün də artıq həqiqətə çevrildi... İndi təkcə Türkiyənin deyil, dünyanın bir çox dövlətlərinin səmasında, ölkəmizin səfirliklərinin binaları üzərində Azərbaycan bayrağı - müstəqilliyimizin müqəddəs rəmzi dalğalanır...

Ulu öndər Heydər Əliyevin belə bir kəlamını xatırlamaq yerinə düşərdi: **"Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".**

Azərbaycanın Dövlət Bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində, o cümlədən beynəlxalq təşkilatlarda ucalır, mühüm tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq müstəqilliyimizi və milli birliyimizi təcəssüm etdirir.

Prezident cənab İlham Əliyevin ölkəmizdə dövlət atributlarına, o cümlədən üçrəngli bayrağımıza göstərdiyi böyük ehtiram, bu məqsədlə həyata keçirilən tədbirlər Azərbaycanda milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən başlıca amillərdir.

Azərbaycan Respublikasının Dövlət Bayrağının Azərbaycan vətəndaşlarının vahid ideya ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə almaq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə Bakı şəhərində, Xəzərin sahilində Dövlət Bayrağı Meydanının yaradılması da Prezident İlham Əliyevin dövlət atributlarına olan yüksək ehtiramının ən gözəl nümunəsidir. Bununla bağlı ölkə başçısı cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də sərəncam imzalamış, 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində - Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət Bayrağı Meydanının təməli qoyulmuşdur. Meydan üçün seçilmiş yer dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradır. Xəzər dənizinin nəğməli sahilində bayrağımız qürurla dalğalanır.

Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. Bəli, bayrağımız tariximizin şanlı səhifəsidir.

Bu gün müstəqil Azərbaycan planetimizdə idman ölkəsi kimi tanınır. Dünya və Avropa çempionatlarında ölkəmizi təmsil edən idmançılarımız inamla çıxış edib, uğurlu nəticələrə imza atmaqla üçrəngli bayrağımızı qürurla dalğalandırırlar.

Milli bayrağımız xalqımızın qürur və güvənci kimi qəbul olunur. Milli bayrağımız dövlətimizin, xalqımızın və müstəqilliyimizin bariz ifadəsidir.

**Ağacan ABİYEV,**
**millət vəkili, professor.**